Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 99-104**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 99-104**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 99-104**

2UOT 78.087.6

P.Rüstəmova
Ü.Hacıbəyli adına BMA-nın doktorantı
Bakı, Şəmsi Bədəlbəyli küçəsi, 98
E-mail: pervin.rustamova@gmail.com

AZƏR DADAŞOVUN 2 NÖMRƏLİ FORTEPİANO KONSERTİNDƏ KLASSİK ƏNƏNƏLƏRİN TƏZAHÜR ASPEKTLƏRİ

Açar sözlər: *Fortepiano konserti, forma, klassik ənənələr, interpretasiya*

Məqalə A.Dadaşovun 2 nömrəli fortepiano konsertinin təhlilinə həsr olunmuşdur. Məqalədə təqdim olunan əsərdəki klassik formaların interpretasiya xüsusiyyətləri işıqlandırılmışdır. Təhlil prosesində formanın struktur təşkili, onun tonal planının xüsusiyyətləri açıqlanır. Müəllifin əsas diqqəti klassik ənənələrin varisliyi və novatorluq məsələlərinə yönəldilmişdir. Bundan başqa, məqalədə konsertin milli ənənələri ilə əlaqəsi də vurğulanır.

П.Рустамова

КЛАССИЧЕСКИЕ ТРАДИЦИИ КОНЦЕРТА №2 АЗЕРА ДАДАШЕВА

Ключевые слова: *Фортепианный концерт, форма, классические традиции, интерпретация, структура, солист, оркестр*

Данная статья посвящена анализу фортепианного концерта №2 А.Дадашева. В статье освещены особенности классических форм в представленном произведении. В процессе анализа раскрываются аспекты структурной организации формы, особенности её тонального плана. Основное внимание автор уделяет вопросу преемственности классических традиций и новаторства в трактовке формы. Кроме того, в исследовании подчёркивается связь концерта с национальными традициями.

P.Rustamova

CLASSICAL TRADITIONS OF THE SECOND PIANO CONCERT BY A.DADASHOV

Key words: *Piano concert, form, classical traditions, interpretation, structure, soloist, orchestra*

This article is devoted to the analysis of the Second piano concert by A.Dadashov. The article highlights the peculiarities of the interpretation of the classic forms in the presented work. In the process of analysis, the aspects of structural organization of the form, features of its tonal plan are revealed. The author focuses on the continuity of classical traditions and innovation in the interpretation of the form. In addition, the article emphasizes the relations between the concert and national traditions.

Azər Dadaşov Azərbaycan müasir bəstəkarlıq məktəbinin elə bir nümayəndələrindəndir ki, onun yaradıcılığında klassik musiqi sənəti ənənələri ilə əlaqə xüsusilə parlaq və aydın bir şəkildə özünü büruzə verir. Yaxşı məlumdur ki, yaradıcılıq uğurlarının mühüm salnaməsi və uzunillik yaradıcılıq bioqrafiyası olan bəstəkar fortepiano üçün konsert janrına ilk dəfə 15 il öncə müraciət etmişdir. Bununla yanaşı, 3 fortepiano konsertinin (1-ci konsert 2004, 2-ci konsert 2009, 3-cü konsert 2009-cu ildə yazılmışdır) müəllifi olan Azər Dadaşov bu janrın tətbiqinə əvəzolunmaz fərdi xüsusiyyətlər aşılaya bilmişdir. Bu xüsusiyyət hər üç konsertin üslub cizgilərində özünü göstərir. Kameralılıq, liriklik, iti dramaturji təzadın yoxluğu hər üç konsertin ortaq xüsusiyyətləridir. Lakin, Azər Dadaşovun 3 fortepiano konserti arasında Avropa klassisizminin ənənələrinə daha da yaxın olan II konsert xüsusi yer tutur. Bəstəkarın digər iki konserti kimi solist və kamera orkestri üçün yazılmış bu fortepiano konserti birhissəli formada yazılmışdır, habelə I və III konsertin əksinə olaraq bu janr üçün ənənəvi sayılan üçhissəli struktura malikdir. Mövzu quruluşu baxımından hissələrin nisbətinə baxsaq ənənəvi (cəld-yavaş-cəld) ardıcıllaşmasını görə bilərik.

Bəstəkarın klassik ənənələrə sadiqliyi özünəməxsus bir şəkildə meydana çıxaraq ayrı-ayrı hissələrin quruluşunda da hiss olunur. Konsertin birinci hissəsi ənənəvi giriş kimi sonata alleqrosu formasında yox, əsasən final hissələrinin yazıldığı rondo-sonata formasında təqdim olunmuşdur. Bu forma Vyana klassiklərinin yaradıcılığı üçün bir o qədər də ənənəvi olmasa da onun bu silsilədəki yeri çox qeyri-adi görünür. Bununla da bəstəkarın çox yaxşı tanış olduğu klassik ənənələrə fərdi yanaşması nümayiş olunur. Bundan əlavə, müasir dövrün bəstəkarı olan Azər Dadaşov rondo-sonata klassik formasını yetəri qədər sərbəst bir şəkildə təfsir edir.

Nümunə №1



Azər Dadaşovun fortepiano konsertlərinin xarakterik xüsusiyyətlərindən biri sayılan giriş hissənin varlığı məqamı təhlil etdiyimiz konsertdə də özünü göstərir. V.Xolopova bir sıra azsaylı əsərlər arasından nümunələr gətirərək rondo-sonatada girişin yalnız bəzi hallarda rast gəlinə biləcəyini qeyd edir – Şostakoviçin 1 nömrəli Es-dur violonçel konsertinin finalı, Sen-Sansın a-moll rondo kapriççiozosunun girişi [2, s.117]. Bundan əlavə, sözügedən konsertin girişi istisna olaraq orkestrin partiyasına həvalə olunub. Orkestrlə solist arasında münasibətin məhz bu cür bölünməsini klassik ənənəyə aid etmək olar. Klassik ənənəyə görə istənilən instrumental konsert orkestrin girişi ilə başlanırdı. Bu zaman orkestrin partiyasına bütün ekspozisiyanın ilk təqdimatı həvalə olunurdu və yalnız ekspozisiyanın mövzusunun təkrar gedişində solist öz çıxışına başlayırdı. Lakin Azər Dadaşov orkestr inhisarını yalnız giriş bölümünün sərhədləri ilə məhdudlaşdırır. Belə ki, bu konsertdə ekspozisiyanın daxil olması ilə artıq solist çıxışa başlayır və onun partiyası öz üstünlüyünü nümayiş etdirir. Bununla yanaşı, klassik formanın normaları hissəvi olaraq ekspozisiyada da qorunub saxlanılır. Belə ki, artıq çıxışa başlamış əsas partiyanın baş mövzusunu bəstəkar solistə yox, yenidən məhz orkestrə həvalə edir.

Girişin məzmununda iştirak edən hər iki mövzunun inkişafında bəstəkar çox fərqli üsullar istifadə edir. Belə ki, ilk mövzu eyni zamanda motiv və intonasiyaların inkişafında hiss olunan kvadrat struktura malikdir. Və bu stilistik üsula bəstəkarın erkən klassik konsertlərə bir bağlılığı kimi də baxıla bilər. Mövzunun intonasiya, lad və harmonik dil nöqteyi-nəzərindən verilməsinə baxmayaraq o, müasir musiqi dövrünün fenomeni kimi klassik nümunələrdən uzaqdır.

Girişin ikinci mövzusunun başlaması ilə klassik formaları xatırladan strukturun əvəzinə inkişaf prinsiplərinə görə muğam melodikasına çox bənzər bir tematizm əmələ gəlir. Bu nöqteyi-nəzərdən mövzunun əsas dayaq nöqtəsinin

dəfələrlə təkrarındakı sonluğu da xarakterikdir. Bu şəkildə girişin inkişafında Azər Dadaşovun musiqi dilinin əsas xüsusiyyətlərindən biri reallaşır. Bu, bəstəkarın musiqi dilində Avropa klassisizminin və milli ənənəvi musiqi mədəniyyətinin cizgilərinin qovuşmasıdır.

Növbəti inkişafa gəldikdə isə, burada klassik ənənələrlə sıx əlaqəni çox asan bir şəkildə görmək olar. İlk növbədə əsas və köməkçi partiyalar arasında obrazlı məzmunun paylanması. Burada əsas partiyanın mövzusu aktivdir, enerjilidir və öz xaraketrinə görə ənənəvi bir şəkildə cəsarətli obrazı əks etdirir. İkinci məsələ isə əsas partiyanın strukturunun kvadrat olması və çox dəqiqliklə bərabər cümlələrə bölünməsidir ki, bu da klassik ənənələrdən xəbər verir.

Bu konsertdə inkişafın başlanmasının növbəti mərhələsi yeni mövzunun yaranması ilə bağlıdır. Sözügedən mövzunu işləmədə epizod adlandırmaq olar. Qeyd etmək lazımdır ki, işləmə bölməsinə yeni tematik obrazın əlavə olunması bəstəkarın bütün fortepiano konsertlərinin strukturunda istifadə etdiyi xarakterik bir üsuldur. Şərti olaraq həm işlənmə və həm də ikinci epizod kimi adlandırılması mümkün olan bu hissə boyunca bütöv mövzuların keçirilmə prinsipi hökmranlıq edir. Onu da vurğulamaq lazımdır ki, bəstəkar simfoniyalarında sonata alleqrosunda motiv parçalanması prinsipindən uzaq durur [1, s. 152].

Təhlil edilən konsertin II hissəsi əsərin lirik mərkəzidir. Bu mərkəzin inkişafında hər hansı bir kəskin dramatik münaqişə və hətta parlaq obraz fərqliliyi belə müşahidə olunur. Bütün hissə vahid əhval xarakterində saxlanılır. Bəstəkar bu bölməni növbəti terminoloji ifadə ilə vurğulayır: Amorenole con tristezza (kədərlə sevən). İki mövzu əsasında quruluş variasiyalar ikinci hissənin formasını əmələ gətirir. Ümumilikdə formanın bu növ seçimi həm də sonata-simfonik silsiləsinin ikinci hissəsi üçün olduqca ənənəvidir (Burada Y.Haydının məşhur 103 saylı simfoniyasının II hissəsi xatırlamaq yerinə düşərdi).

Nümunə №2



Xarakter və əhvalın vahid obrazlılığı bu hissədə mövzuların semantik yaxınlığı ilə deyil, həm də burada hökmranlıq edən inkişafın prinsipləri ilə müəyyən olunur. Azər Dadaşov öz mövzularının variasiyavari şəkildəyişməsi üçün ən çətin prinsipi – soprano ostinatolu variasiyanı seçir. Əsasən ostinatolu mövzunun əsas inkişaf üsulları musiqişünasların fikrincə faktura-tembrli və tonal-harmonik üsullar olur [2, s.141]. Göstərilmiş iki üsuldan birinciyə təhlil edilən hissənin inkişafında önəm verilir.

Bütün klassik ənənələrə sadiq qalaraq konsertin III hissəsi cəld tempə və milli janra malikdir. Müəllifin bu hissəyə verdiyi xarakterik terminoloji ifadə isə "Festivo" – bayram mənasını verir. Bəstəkar tərəfindən bu hissə üçün seçilmiş forma heç də klassik finaldan uzaq bir seçim deyil. Hissənin inkişafında rondovariliyin konturları çox asan bir şəkildə duyulur.

Nümunə № 3



Klassik rondoya giriş verən refren üçhissəli struktura malikdir. Refrenin mövzularının intonasiya inkişafında sekundaların ahəngi xüsusi olaraq seçilir. Verilmiş hissənin kontekstində sekundalılıq sanki bəstəkarın Azərbaycan xalq alətlərinin səslənməsi üçün can atır. Bundan əlavə, gah kiçik, gah da böyük tersiyanın do-mi=(re diyez)-sol kimi üçsəslinin konturları çərçivəsində növbəli səslənməsi də milli ladın səslənməsinin yaranmasına yol verir.

Nümunə №4



Finalın rondovari formasının ilk epizodu iki hissədən ibarətdir. Bu hissələrdə isə I hissənin olduqca böyük bir epizodunun dəqiq təkrarı çıxış edir. Refrenin finaldakı II keçirilməsi əhəmiyyətli bir şəkildə qısaldılmışdır və yalnız

II mövzunun inkişafını əhatə edir. Bununla yanaşı onu da vurğulamalıyıq ki, II hissənin keçirilməsi mütləq şəkildə dəqiq təkrara əsaslanır.

Birinci kimi, II epizod da ikihissəli struktura malikdir. Lakin burada I hissəni konsertin II hissəsinin epizodunun təkrarı təşkil edir. Daha dəqiq desək, II hissənin II mövzusunun təkrarı. Finalda Azər Dadaşov bu mövzunun tonallığını dəyişir.

Finalın II epizodunun II hissəsi kimi solistin kadensiyası çıxış edir. Bununla yanaşı, bəstəkar müasir konsertlərdə də geniş vüsət almış erkən klassisizm ənənələrini qoruyub saxlayır. Bu kadensiyanın əvvəlində solistin mütləq improvizasiyasıdır. Bu zaman bəstəkar öz musiqili fikrini notlarla yox, sadəcə *ad libitum* termini ilə ifadə edir.

Refrenin bağlayıcı keçirilməsi ilk keçirilmə ilə müqayisədə kifayət qədər qısaldılmışdır. Bu üsulla bəstəkar bütün üçhissəli silsiləni reminissensiyaların köməyi ilə, eləcə də ifadəliliyin ümumi üsulları və ayrı-ayrı vasitələri ilə birləşdirir.

Bütün bu sadalanan məqamlardan sonra aşağıdakı ümumiləşdirməni aparmaq olar. Haqqında danışdığımız 2 nömrəli fortepiano konsertinin inkişafında müəyyən bir məntiqi görmək olar ki, bu da tematik materialın bölüşdürülməsi zamanı solist və orkestr partiyasının oyunudur. Belə ki, I hissədə demək olar ki, bütün aparıcı tematik material orkestrin partiyasına həvalə olunur. II hissə aparıcı tematizmin növbəli şəkildə bir partiyadan digərinə keçdiyi bütöv bir dialoqdur. III hissədə isə məhz solistin partiyası aparıcı tematik materialın bilavasitə daşıyıcısı kimi çıxış edir. Ümumi olaraq isə deyə bilərik ki, bu əsər konsert janrına xas olan ənənəvi üçhissəli formada yazılmışdır. Lakin bəstəkar bununla kifayətlənməyərək klassik ənənələrə bağlılığını bir daha vurğulayır və əsərin hissələrini ayrı-ayrılıqda klassik ənənəyə xas strukturda qələmə alır. Bu da bəstəkarın yaradıcılığında klassik ənənələrin varisliyini bir daha təcəssüm etdirir.

ƏDƏBİYYAT

1. Дадашева Н. Симфонии Азера Дадашева, Б.:, Təhsil, 2012, 224 с.
2. Холопова В. Формы музыкальных произведений: Учебное пособие. 2-е изд., испр.— СПб.: Лань, 2001, 496 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.10.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.11.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.